**“AzerGold” Qapalı Səhmdar Cəmiyyəti**
**Hər birinin nominal dəyəri 100 (bir yüz) ABŞ dolları olan 200 000 (iki yüz min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların**

# EMİSSİYA PROSPEKTİ

**Bakı 2023**

MÜNDƏRİCAT


1. BƏYANAT 3

2. XÜLASƏ 4

3. EMİTENTİN AUDİTORLARI BARƏDƏ MƏLUMAT 13

4. SEÇİLMİŞ MALİYYƏ MƏLUMATI 14

5. EMİTENT BARƏDƏ MƏLUMAT 14

6. EMİTENTİN BİZNESİNİN İCMALI 16

7. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK 18

8. TENDENSİYALAR BARƏDƏ MƏLUMAT 19

9. GƏLİR PROQNOZU 20

10. EMİTENTİN İDARƏETMƏ VƏ NƏZARƏT ORQANLARI 20

11. İDARƏ HEYƏTİNİN İŞGÜZAR PRAKTİKASI 24

12. EMİTENTİN NİZAMNAMƏ KAPİTALINDA MÜHÜM İŞTİRAK PAYINA SAHİB OLAN ŞƏXSLƏR 26

13. EMİTENTİN MALİYYƏ MƏLUMATLARI 27

14. EMİTENT HAQQINDA ƏLAVƏ MƏLUMATLAR 39

15. İSTİQRAZLAR BARƏDƏ TƏLƏB OLUNAN ƏSAS MƏLUMAT 40

16. İSTİQRAZLAR BARƏDƏ MƏLUMAT 42

17. TƏKLİFİN ŞƏRTLƏRİ 45

18. İSTİQRAZLARIN TİCARƏTƏ BURAXILMASI VƏ ONUN TƏNZİMLƏNMƏSİ 48

19. KREDİT REYTİNQLƏRİ 48

## 2. BƏYANAT

EMİSSİYA PROSPEKTİNİN TƏRTİB EDİLMƏSİNDƏ İŞTİRAK EDƏN ŞƏXSLƏR VƏ EMİSSİYA PROSPEKTİNDƏ TƏQDİM EDİLMİŞ MƏLUMATLARA DAİR BƏYANAT

Biz aşağıda imza edənlər,

1.1. Bu Emissiya Prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27.01.2016-cı il tarixli, 05 saylı Qərarı ilə təsdiq edilmiş "Emissiya Prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.

1.2. "AzerGold" QSC-nin hər birinin nominal dəyəri 100 (bir yüz) ABŞ dolları olan 200 000 (iki yüz min) ədəd faizli, təminatsız, sənədsiz, adlı istiqrazlarının Emissiya Prospektinə daxil edilmiş bütün məlumatların həqiqi faktlar əsasında olduğu heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri:

İbrahimov Zakir Zaur oğlu ____________________

"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədrinin müavini:

Fərzəliyev Xəyyam Oqtay oğlu ____________________

## 2. XÜLASƏ

### 2.1. Xəbərdarlıq

2.1.1. Bu sənəd Emissiya Prospektinin giriş hissəsidir.

2.1.2. İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun Emissiya Prospektini oxuduqdan sonra həyata keçirilməlidir.

2.1.3. Emissiya Prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya İstiqrazlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Emissiya Prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

### 2.2. Emitent haqqında məlumat

2.2.1. **Emitentin tam adı:** "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra - Emitent və ya Cəmiyyət).

2.2.2. **Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ünvan:** Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1004, Mikayıl Müşfiq küçəsi 2H, Qapalı Səhmdar Cəmiyyəti

2.2.3. **Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:**

**Texnoloji inkişaf.**

✓ Bu gün bir çox böyük mədən şirkətləri yeni işçiləri qeyri-standart və fövqəladə hallarda işləməyin öyrənilməsinə imkan yaradan, virtual təlimlərə göndərirlər. Bu cür virtual təlimlər real əməliyyatlar zamanı işçilərin daha hazırlıqlı olmaqlarına, təlimlər üzrə vaxt itkisinin və xərclərin azaldılmasına səbəb olur.

✓ Kadr hazırlığı xərcləri, xüsusən də yeraltı mədən işlərində, müəssisənin xərclərinin əhəmiyyətli hissəsini təşkil edir. Bu səbəbdən pilotsuz mədən avadanlıqlarının istifadəyə verilməsi mədən sahəsinin inkişafında yeni bir trendə çevrilmişdir.

✓ Əməliyyat effektivliyinin artırılması məqsədilə şirkətlər süni intellekt texnologiyasından istifadə edirlər. Bu texnologiyanın tətbiqi gündəlik məlumatların iki dəfə daha sürətli əldə edilməsinə imkan yaradır.

**İqtisadi faktorlar.**

✓ Növbəti 30 ildə demoqrafiya qlobal iqtisadiyyatın formalaşmasında getdikcə daha çox rol oynayacaqdır. İnkişaf etməkdə olan bazarlarda orta sinfin genişlənməsi (xüsusilə Çin və Hindistanda) və artan iqtisadi inkişaf qızılın tələbatına əhəmiyyətli dərəcədə təsir göstərəcəkdir. Hindistan və Çin dünyada ən böyük qızıl istehlakçılarıdır. Onların orta təbəqəsi və ümumi alıcılıq qabiliyyəti artdıqca qızıl tələbatının artacağı gözlənilir.

✓ Zərgərlik və investisiya dərəcəli külçə sektoru qızıl tələbatını formalaşdıran tək amil deyil. Odur ki, qızıl elektrik cihazlarının və tələbatı sürətlə artan elektrik avtonəqliyyat vasitələrinin istehsalında, tibbdə və digər sahələrdə istifadə edilir.

Nəticə etibarı ilə qızıla olan tələbatın növbəti illərdə artacağı gözlənilir. Lakin, əməliyyat məhdudiyyətləri, artan əməliyyat xərcləri və yeni qızıl yataqlarının qismən kəşf olunması səbəbindən qızılın təklifi tələbata nisbətdə azalacaqdır. Nəticədə gələcəkdə tədarükün defisiti ilə əlaqədar qızılın tələb və tədarükü arasındakı qlobal balansın pozulması gözlənilir. Bunlar da öz növbəsində uzunmüddətli perspektivdə qızıl qiymətlərinin artmasına təzyiq göstərəcəkdir.

2.2.4. **Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:**

**“Daşkəsən Dəmir Filiz” Məhdud Məsuliyyətli Cəmiyyəti.**

- ✓ Azərbaycan Respublikası Prezidentinin 6 avqust 2020-ci il tarixli 2202 nömrəli “Daşkəsən dəmir filizi yatağının istismara verilməsi ilə bağlı tədbirlər haqqında” Sərəncamı ilə Daşkəsən dəmir filizi sahəsinin istismara verilməsi ilə əlaqədar ilkin qiymətləndirmə sənədinin hazırlanması “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinə həvalə edilmişdir.
- ✓ Azərbaycan Respublikası Prezidentinin 01 sentyabr 2020-ci il tarixli 2245 nömrəli “Dağ-mədən və metallurgiya sənayesində iqtisadi islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər və Azərbaycan Respublikası Prezidentinin “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında” 2015-ci il 11 fevral tarixli 1047 nömrəli, “Azərbaycan Respublikasının metallurgiya kompleksində sağlamlaşdırma və restrukturizasiya tədbirlərinin həyata keçirilməsi haqqında” 2016-cı il 13 iyul tarixli 2198 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə” Sərəncamı ilə “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinə ölkə ərazisində dəmir filizi yataqlarının öyrənilməsini, tədqiqini, kəşfiyyatını, işlənilməsini və idarə olunmasını, bu sahədə yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetirilməsini təmin etmək tapşırılmışdır.
- ✓ Sözügedən sərəncamlardan irəli gələrək Emitent tərəfindən “Daşkəsən Dəmir Filiz” Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra – “DDF” MMC) təsis edilmiş və 14 dekabr 2020-ci il tarixində dövlət qeydiyyatına alınmışdır.
- ✓ “DDF” MMC-nin yeganə təsisçisi və bu Emissiya Prospekti dərc edildiyi tarixə yeganə payçısı Emitentdir.
- ✓ “DDF” MMC-nin əsas məqsədləri qara metal filizi yataqlarının öyrənilməsini, tədqiqini, kəşfiyyatını, işlənilməsini və idarəolunmasını, bu sahədə yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirməkdən ibarətdir.

**“AzerBlast” Məhdud Məsuliyyətli Cəmiyyəti**

- ✓ “AzerBlast” Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra – “AzerBlast” MMC) Emitent və digər təsisçi tərəfindən təsis edilmiş və 09 mart 2021-ci il tarixində dövlət qeydiyyatına alınmışdır.

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

✓ “AzerBlast” MMC-nin təsis edildiyi vaxtdan bu Emissiya Prospekti dərc edildiyi tarixədək 51% payı Emitentə, digər 49% isə “DM SERVİS” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsusdur.
✓ “AzerBlast” MMC-nin əsas məqsədləri ölkə ərazisində sənaye partlayıcı maddələrin istehsalı, istifadəsi, satışı və ixracı üzrə fəaliyyətin təşkili, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirməkdən ibarətdir.

2.2.5. **Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Gəlir proqnozu mövcud deyil.

2.2.6. **Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:** “PraysvoterhausKupers” MMC tərəfindən“AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra “Cəmiyyət”) 31 dekabr 2022-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə başa çatmış il üzrə məcmu gəlirlər haqqında hesabat, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlaması aparılmışdır. Audit rəyinə əsasən maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

2.2.7. **Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından sonra Emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat:** Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından sonra Emitentin fəaliyyətində dəyişiklik olmamışdır.

2.2.8. **Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə malumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri:**

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| Gəlirlər | 187,347 | 190,526 | 210,198 |
| Xalis mənfəət (zərər) | 81,957 | 49,983 | 51,360 |
| Cəmi aktivlər (dövrün sonuna) | 237,793 | 341,567 | 608,371 |
| Cəmi öhdəliklər (dövrün sonuna) | 70,963 | 69,892 | 160,336 |
| Cəmi kapital (dövrün sonuna) | 166,830 | 271,675 | 448,035 |
| Pul vəsaitləri (dövrün sonuna) | 54,568 | 96,856 | 11,562 |

2.2.9. **Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:**

2.2.9.1. **Xarici faktorlar/hadisələr:** Qızılın qiymətinin ~$1,940/unsiyaya artması və müsbət tendensiyanın qısa və orta müddətdə saxlanılmasına dair beynəlxalq tədqiqatlar və ekspertlərin rəyi.

2.2.9.2. **Daxili faktorlar:** Cəmiyyətin illər üzrə stabil fəaliyyəti, məsələn Cəmiyyətin öz kredit öhdəliklərinin vaxtında icrası Cəmiyyətin xalis mənfəətinin (və bölüşdürülməmiş mənfəətin) mövcudluğu, Cəmiyyətin nizamnamə kapitalı 233,3 milyon manatdır. Cəmiyyətin aktivlərinin dəyəri 700 milyon manata qədər artmışdır. Yerli banklardan cəlb olunmuş kreditlər və mənfəət hesabına ÇİRES sahəsində tikintisi başa çatmaq üzrə olan yeni texnalogiyalara əsaslanan çən aşındırma texnologiyası (CİL) əsasında zavod istehsalda səmərəliliyi artırmaqla daha çox qızıl və gümüş istehsalına nail olmağa imkan yaradacaq. Cəlb olunmuş kreditlərin həcmi illik ortalama 5,15 % olmaqla 161,5 milyon manatdır.

2.2.9.3. **Digər faktorlar:** Fəaliyyətin səmərəli idarəedilməsi nəticəsində, ildən-ilə yaxşılaşan ƏFG (əsas fəaliyyət göstəriciləri) indikatorları, Cəmiyyətdə beynəlxalq korporativ idarəetmə standartlarının tətbiqi nəticəsində formalaşdırılmış dayanıqlı mühit.

2.2.10. **Emitentin əsas fəaliyyətlərinin təsviri:** Cəmiyyətin əsas məqsədləri əlvan və qara metal filizi yataqlarının öyrənilməsini, tədqiqini, kəşfiyyatını, işlənməsini və iarə olunmasını, bu sahədə yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirməkdən ibarətdir. Cəmiyyət əsas məqsədin icrası ilə əlaqədar aşağıdakı fəaliyyətləri həyata keçirir:

2.2.10.1. müvafiq sahədə dövlət siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək;

2.2.10.2. müvafiq sahədə aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təkliflərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

2.2.10.3. faydalı qazıntı ehtiyatlarının dövlət balansına qəbul edilmiş əlvan və qara metal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və idarə olunması;

2.2.10.4. faydalı qazıntı ehtiyatlarının dövlət balansında qeydiyyata və uçota alınmış tərkibində əlvan və qara metal filizi olan kommersiya əhəmiyyətli filizin hasilatı, daşınması, emalı və satışı;

2.2.10.5. yeni texnologiyaları, texniki vasitələri tətbiq etməklə yüksək keyfiyyətli əlvan, qara, o cümlədən nəcib metalların istehsalı, emalı, onlardan müasir tələblərə cavab verən rəqabətədavamlı məhsulların istehsalı və belə məhsulların satışı;

2.2.10.6. Cəmiyyətin fəaliyyətində yeni texnologiyaların tətbiqi, texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə edilməsi, beynəlxalq standartların tələblərinə uyğun məhsul istehsalı güclərinin formalaşdırılması;

2.2.10.7. Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

2.2.11. **Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən Emitentə nəzarətin xüsusiyyəti:** “AzerGold” QSC-nin səhmlərinin 100% dövlətə məxsusdur. Emitentin fəaliyyətinə ümumi nəzarət Müşahidə Şurası tərəfindən həyata keçirilir.

2.3. **Qiymətli kağızlar haqqında məlumat**

2.3.1. **İstiqrazların növü:** Faizli, təminatsız, sənədsiz, adlı istiqrazlar.

2.3.2. **İstiqrazların valyutası:** ABŞ dolları.

2.3.3. **İstiqrazlarla təsbit olunan məhdudiyyətlər:** Hər-hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

2.3.4. **İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:**

2.3.4.1. Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;

2.3.4.2. İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;

2.3.4.3. İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən illik 6 (altı) faiz həcminə qədər faiz almaq;

2.3.4.4. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

2.3.5. **İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 6 (altı) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 3 (üç) il müddətində, ildə günlərin sayı 360 (üç yüz altmış) olaraq götürülməklə) hər 90 təqvim günündən bir ödənilir. 90-cı gün qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti ilk iş günü ödənilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirilir. İstiqrazların nominal dəyəri sonuncu kupon ödənişi ilə birlikdə ödəniləcəkdir.

2.3.6. **Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:** Təminatsızdır.

2.3.7. **İstiqrazların geri satın alınma şərtləri:** İstiqrazların Emitent tərəfindən tədavül müddəti ərzində geri satın alınması nəzərdə tutulmamışdır.

2.3.8. **Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** İstiqrazlar üzrə kupon gəlirliyi illik 6 faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$F = ((N * D * G)/360) * 0.01$$

Burada:

$\boldsymbol{TF}$ – Bir istiqraz üzrə toplanmış faizlər;

$\boldsymbol{N}$ – İstiqrazın nominal dəyəri;

$\boldsymbol{D}$ – İstiqrazın illik faiz dərəcəsi;

$\boldsymbol{G}$ – Son faiz (kupon) ödənişindən sonra keçən günlərin sayı.

2.3.9. **İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** Mövcud deyil.

2.3.10. **Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

2.3.11. **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə Emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda, istiqraz ticarətə buraxılacağını tənzimləyən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya Prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

## 2.4. Risk faktorları

2.4.1. **Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:** İstiqrazları əldə edən şəxs aşağıdakı əsas risklərin mövcud olduğunu bilməli və nəzərə almalıdır:

2.4.1.1. Kredit riski **–** Emitentin istiqrazlar tədavüldə olan müddətdə onlar üzrə faiz (kupon) ödənişlərinin və müddətin sonunda əsas nominal dəyər üzrə ödənişin həyata keçirə bilməməsi riskidir. Emitentin öz öhdəliklərinin yerinə yetirməməsi və ya yerinə yetirməməsi ehtimalının artması istiqrazların bazar qiymətinə mənfi təsir edir. Bu halın baş verməsi bir çox amillərdən, o cümlədən Emitentin mövcud və gələcəkdə yaranacaq öhdəliklərinin kapitala nisbətindən, satdığı əsas məhsulların bazar qiymətinin azalması ilə Emitentin ödəniş qabiliyyətinin zəifləməsi və bir sıra digər amillərdən asılıdır.

2.4.1.2. Faiz dərəcəsi riski – ABŞ dolları üzrə bazar faiz dərəcələrinin artmasının istiqrazların bazar qiymətinə mənfi təsir etməsi riskidir. ABŞ dolları üzrə faiz dərəcələrinə təsir edən əsas faktorlara ABŞ-da inflyasiyanın və ya inflyasiya

gözləntilərinin artması, ABŞ-da mərkəzi bank funksiyasını yerinə yetirən Federal Ehtiyatlar Sistemi tərəfindən faiz dərəcələrinin artırılmasını aid etmək olar.

2.4.1.3. Valyuta riski – ABŞ dollarının digər valyutalara, o cümlədən Azərbaycan manatına qarşı dəyər itirməsi riskidir. ABŞ dollarının digər valyutalara qarşı ucuzlaşması, istiqrazların digər valyutalarda (misal üçün, Azərbaycan manatında) ifadə edilmiş bazar qiymətinə mənfi təsir edir.

2.4.2. **İstiqraz emissiyası zamanı Emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:** Qızılın qiymətinin kəskin düşməsi, kəskin iqlim dəyişməsi, təbii fəlakətlərin baş verməsi, qlobal rəqabət, qanunvericilikdə baş verə bilən dəyişikliklər.

## 2.5. Təklif

2.5.1. **Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:**

Cəlb olunacaq əlavə vəsaitlərlə ÇİRES (Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsi) layihəsi üzrə işlərin görülməsi və yeni mədənlərin işə salınması ilə mənfəətin daha da artırılması.

2.5.2. **Təklifin şərtlərinin təsviri:** Emissiya ediləcək istiqrazlar qanunvericiliklə müəyyən edilmiş orqan (qurum) tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 iş günü qalmış hərracın baş tutacağı tarix “Bakı Fond Birjası” QSC-nin və Anderrayterin saytında investorlara açıqlanacaqdır. İstiqrazlar kütləvi təklif üsulu ilə Bakı Fond Birjasında 3 il müddətli, təminatsız, sənədsiz, adlı, istiqraz nominal dəyəri 100 ABŞ dolları olmaqla, illik 6% (kupon) dərəcə və kuponun rüblük ödəniş şərti ilə 20 milyon ABŞ dolları dəyərində yerləşdiriləcək.

İstiqrazlar rəqabətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. Rəqabətli hərrac üsullu ticarət zamanı əqdlər hərracın sonunda, toplanmış alış və ya satış sifarişlərinə qarşı qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısı (anderrayter) tərəfindən əks sifarişin daxil edilməsi yolu ilə bağlanır. Rəqabətli hərrac iki mərhələdə təşkil olunur: sifarişlərin qəbul edilməsi və əqdlərin bağlanması. Sifarişlərin qəbul edilməsi mərhələsində ticarət iştirakçıları (anderrayter və Bakı Fond Birjasının digər ticarət üzvləri olan investisiya şirkətləri) rəqabətli sifarişlər təqdim edirlər. Bu mərhələdə ticarət iştirakçıları hərraca çıxarılmış qiymətli kağızlar üzrə təqdim etdikləri sifarişlərin şərtlərini dəyişdirə və ya bu sifarişləri ləğv edə bilər. Sifarişlərin təqdim edilmə müddəti bitdikdən sonra sifarişlərin təqdim edilməsinə, dəyişdirilməsinə və ləğv edilməsinə yol verilmir. Əqdlərin bağlanması

mərhələsində qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısı (anderrayter) təqdim edilmiş sifarişlərin icra ediləcəyi minimal qiyməti (kəsmə qiymət) müəyyən edərək əks sifarişi ticarət sisteminə daxil edir. Rəqabətli sifarişdə qeyd olunan qiymət kəsmə qiymətdən aşağı olmadıqda bu sifarişlər təmin edilir. Sifarişlərin qəbulu mərhələsində təqdim edilmiş sifarişlər (sifarişlər kitabı) yalnız qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısına (anderrayterə) açıqlanır. Digər hərrac iştirakçıları yalnız özlərinin təqdim etdikləri sifarişləri görə bilirlər. Hərrac günündən gec olmayaraq, investorlar istiqrazların alınması üçün pul vəsaitlərini emitent tərəfindən "PAŞA Bank" ASC-də açılmış müvəqqəti cari hesaba köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet saytında (www.azergold.az) açıqlanır

2.5.2.1. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri: İstiqraz buraxılışı üzrə yerləşdirmənin başlanma və başa çatma tarixləri istiqrazlar dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 (iki) iş günü qalmış "Bakı Fond Birjası" QSC-nin (www.bfb.az) və anderrayterin saytında investorlara açıqlanacaqdır. Hərrac qaydalarına uyğun olaraq hərracın yerləşdirilməsi 7 gün ərzində başa çatdırılacaqdır.

2.5.2.2. Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası: Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 (beş) iş günü ərzində qanunvericilikdə müəyyən edilmiş orqana (quruma) təqdim edilir.

2.5.2.3. Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı: "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və Emitentin internet səhifəsində açıqlanır.

2.5.3. **Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat:**

2.5.3.1. **"Bakı Fond Birjası" QSC.** Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:

2.5.3.1.1. İstiqrazların listinqə daxil edilməsi;

2.5.3.1.2. İstiqrazların hərrac vasitəsilə yerləşdirilməsi üçün müvafiq ticarət sisteminin təmin edilməsi;

2.5.3.1.3. İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi.

2.5.3.2. **“Milli Depozit Mərkəzi”.** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

2.5.3.2.1. İstiqrazların saxlanması və uçotunun aparılması;

2.5.3.2.2. İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;

2.5.3.2.3. Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

2.5.3.3. **“PAŞA Kapital İnvestisiya Şirkəti” QSC**. İSN/L-640/2016 saylı lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. İstiqrazların buraxılışı və yerləşdirilməsi prosesində anderrayterlərin vəzifələri aşağıdakılardır:

2.5.3.3.1. İstiqrazların yerləşdirilməsi üzrə hərrac zamanı toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;

2.5.3.3.2. Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alğı-satqı əqdləri barədə hesabat tərtib edərək Emitentə təqdim etmək.

2.5.3.3.3. Emissiyanın yekunları haqqında hesabat Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq ediləndən sonra, yerləşdirmə nəticəsində toplanmış pul vəsaitlərini Emitentin bank hesabına köçürülməsini təmin etmək.

2.5.3.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:

2.5.3.5. Vergilər. Fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri vergidən azaddır. Hüquqi şəxslərə istiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində 10 % vergi tətbiq edilir.İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq

ediləcək vergilər barədə məlumat Emitent və ya Anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

2.5.3.6. **Xərclər**. İstiqrazın əldə olunması ilə bağlı xidmət haqqı xərcləri investisiya şirkətlərinin tarif siyasətindən asılıdır. Bu barədə məlumat almaq istəyən investorlar onlara investisiya xidməti göstərəcək investisiya şirkətinə müraciət etməlidir.

- əqdin məbləğinin 0.02%-i həcmində BFB komissiyası;
- investisiya şirkətinin komisyon haqqı: investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;
- MDM-də “depo” hesab açılması üçün 10 AZN
- hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (bankdan asılı olaraq dəyişir).

## 3. EMİTENTİN AUDİTORLARI BARƏDƏ MƏLUMAT

3.1. **Son üç maliyyə ili ərzində Emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat**:

| İl: | Auditorun adı: | Auditorun ünvanı: | Auditorun üzv olduğu təşkilat: |
|---|---|---|---|
| **2020** | **PraysvoterhausKupers Audit Azərbaycan MMC** | **Bakı şəhəri, Landmark Ofis Plaza, Nizami küçəsi 90 A, 12-ci mərtəbə** | **PricewaterhouseCoopers (PwC) Azerbaijan LLC** |
| **2021** | **PraysvoterhausKupers Audit Azərbaycan MMC** | **Bakı şəhəri, Landmark Ofis Plaza, Nizami küçəsi 90 A, 12-ci mərtəbə** | **PricewaterhouseCoopers (PwC) Azerbaijan LLC** |
| **2022** | **PraysvoterhausKupers Audit Azərbaycan MMC** | **Bakı şəhəri, Landmark Ofis Plaza, Nizami küçəsi 90 A, 12-ci mərtəbə** | **PricewaterhouseCoopers (PwC) Azerbaijan LLC** |

3.2. **Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:** 2022-ci ildə keçirilən satınalmanın nəticəsi olaraq eyni auditor təkrar seçilmişdir.

## 4. SEÇİLMİŞ MALİYYƏ MƏLUMATI

4.1. **Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri:**

| *Min AZN* | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| Gəlirlər | 187,347 | 190,526 | 210,198 |
| Xalis mənfəət (zərər) | 81,957 | 49,983 | 51,360 |
| Cəmi aktivlər (dövrün sonuna) | 237,793 | 341,567 | 608,371 |
| Cəmi öhdəliklər (dövrün sonuna) | 70,963 | 69,892 | 160,336 |
| Cəmi kapital (dövrün sonuna) | 166,830 | 271,675 | 448,035 |
| Pul vəsaitləri (dövrün sonuna) | 54,568 | 96,856 | 11,562 |

## 5. EMİTENT BARƏDƏ MƏLUMAT

5.1. **Emitentin tam adı, təşkilati-hüquqi forması:** "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti

5.2. **Emitentin dövlət qeydiyyatının rekvizitləri:** 05.07.2016-cı il tarixində Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmışdır. VÖEN: 1403467421

5.3. **Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:** Yarandığı tarixdən Emitentin təşkilatı-hüquqi forması və adı dəyişməmişdir.

5.4. **Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, Emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**

5.4.1. Olduğu yer: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1004, Mikayıl Müşfiq küçəsi 2H

5.4.2. Elektron poçt ünvanı: bond@azergold.az

5.4.3. İnternet səhifəsi: www.azergold.az

5.4.4. Əlaqə telefonları: +994 (12) 505 02 02

5.5. **Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri**

| Əsas investisiyanın istiqaməti: |
|---|
| ÇİRES layihəsi (qızıl) çərçivəsində, CİL zavodunun və müvafiq infrastrukturun tikintisi (Daşkəsən rayonu) |
| Filizçay layihəsi (mis, sink, qurğuşun) çərçivəsində, optimal filiz emal rejiminin müəyyən olunması üşün metallurji testlərin aparılması (Balakən rayonu) |
| Ortakənd (qızıl) layihəsi çərçivəsində beynəlxalq standartlara uyğun mineral resurs hesablanmasını yekunlaşdırılması (Naxçıvan Muxtar Respublikası) |
| Göydağ layihəsi (mis) çərçivəsində, buruq-qazma işlərinin aparılması və geokimyəvi təhlillərin aparılması (Naxçıvan Muxtar Respublikası) |
| Tutxun layihəsi çərçivəsind (qızıl) ilkin axtarış işlərinin aparılması və buruq-qazma layihəsinin tərtib olunması (Kəlbəcər rayonu) |

5.6. **İdarəetmə orqanlarının Emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:**

Daşkəsən dəmir filizi yataqlarından hasil edilmiş maqnetit dəmir filizlərinin 3 mərhələli emalı-inteqraedilmiş istehsal zəncirinin qurulması üçün dövlət tərəfindən maliyyələşməklə tikintii işləri həyata keçirilir.

5.7. **Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığını tənzimləyən bazarlar barədə məlumat:**

Emissiya ediləcək istiqrazlar “Bakı Fond Birjası” (BFB) (VÖEN 1700262271) Qapalı Səhmdar Cəmiyyətində yerləşdiriləcəkdir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli “fond birjası fəaliyyəti”–ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB-də Pay bazarı, Borc alətləri bazarı, Repo bazarı, Törəmə maliyyə alətləri bazarı mövcuddur.
Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bse.az
Tel: (+99412) 539 72 49

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

## 6. EMİTENTİN BİZNESİNİN İCMALI

6.1. **Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək Emitentin əsas fəaliyyətlərinin təsviri:** Hazırda daxilolamaların təqribən 98%-i Çovdar Filiz Emalı Sahəsində hasil edilmiş qızıl/gümüş tərkibli xəlitə formasında olan məhsuldan qızılın satışı hesabına formalaşır. Əlavə gəlir növü pərakəndə olaraq külçə/sikkələrin satışıdır.

| | Miqdar (Oz) 2022 | Satış dəyəri (USD) 2022 | Miqdar (Oz) 2021 | Satış dəyəri (USD) 2021 | Miqdar (Oz) 2020 | Satış dəyəri (USD) 2020 |
|---|---|---|---|---|---|---|
| *Qızıl* | **63,475** | **114,395,595** | **59,829** | **107,439,500** | **59,688** | **107,770,883** |
| - o cümlədən | | | | | | |
| *İxrac* | 59,892 | 107,353,009.8 | 56,304 | 100,523,518 | 59,270 | 106,873,969 |
| *Daxili kontagentlər* | 556 | 966,996.5 | 966 | 1,803,246 | - | - |
| *Pərakəndə satışlar* | 3,027 | 6,075,588.5 | 2,558 | 5,112,736 | 418 | 896,914 |
| *Gümüş* | **207,837** | **4,567,859** | **132,946** | **3,347,517** | **119,542** | **2,560,021** |
| - o cümlədən | | | | | | |
| *İxrac* | 193,536 | 4,222,858.6 | 118,334 | 2,953,738 | 119,474 | 2,544,956 |
| *Daxili kontagentlər* | 14,172 | 313,655.9 | 14,521 | 370,567 | - | - |
| *Pərakəndə satışlar* | 130 | 31,344.1 | 91 | 23,212 | 68 | 15,065 |

6.2. **Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:** Hazırda, Cəmiyyətin İnkişaf Strategiyasına uyğun olaraq, yeni növ məhsulların – məsələn konsentrat zink, mis və qurğuşunun təqdim edilməsi istiqamətində tədqiqat layihələri davam etdirilir.

6.3. **Emitentin rəqabət apardığı əsas bazarların təsviri:**

Cəmiyyət tərəfindən hasil edilmiş qiymətli və əlvan metalların beynəlxalq standartlara uyğun olaraq affinajının və satışının təşkili üçün beynəlxalq nüfuza malik olan İsveçrənin "ARGOR-HERAEUS SA" şirkəti ilə əməkdaşlıq haqqında müqavilə bağlanılmışdır. Qeyd edilən əməkdaşlıq çərçivəsində:

**Satışın təşkili**

✓ Satış əməliyyatları affinaj şirkəti tərəfindən Cəmiyyətin təqdim etdiyi qərar əsasında həyata keçirilir.
✓ Qızıl və gümüşün satışı Cəmiyyətin qərarına əsasən tam və ya qismən həyata keçirilir.
✓ Cəmiyyət tərəfindən qiymətlilərin satışı birbaşa affinaj şirkətinə, digər alıcılara, habelə ölkənin qızıl ehtiyatları üzrə tələbatın ödənilməsinə yönləndirilir.

**Satış qiymətinin müəyyən edilməsi**

Qiymətli metalların qiyməti aşağıdakı qaydada müəyyən edilir:
✓ Qızıl üçün – 1 troy unsiyasına görə London Qiymətli Metallar Assosiasiyası tərəfindən satış ilə bağlı xərclər çıxılmaqla ABŞ dolları ilə təyin olunan AM və ya PM qiyməti əsasında hesablanır;
✓ Gümüş üçün – 1 troy unsiyasına görə London Qiymətli Metallar Assosiasiyası tərəfindən satış ilə bağlı xərclər çıxılmaqla ABŞ dolları ilə təyin olunan qiymət əsasında hesablanır.

**Emitentin rəqabət apardığı bazarları aşağıdakı kimi təsvir etmək olar:**

“AzerGold” QSC 100% səhmləri dövlətə məxsus olan dağ-mədən sənayesində fəaliyyət göstərən yeganə şirkətdir. Cəmiyyət Azərbaycan bazarında fəaliyyət göstərməkdədir.
Cəmiyyətin Azərbaycanda qismən iştirak payının sahibi olan, həmçinin xaricdə fəaliyyət göstərən digər dağ-mədən şirkətlərinin (məlumatlar birbaşa həmin şirkətlərin veb səhifəsindən əldə olunub) göstəriciləri üzrə müqayisəsi:

| EBITDA Marjası[1] | | |
|---|---|---|
| 1 | Newmont | 61% |
| 2 | Yamana gold | 57% |
| 3 | Anglo Asian PLC | 55% |
| 4 | BHP | 53% |
| 5 | Azergold CJSC | 51% |
| 6 | Kinross gold | 51% |
| 7 | Eldorado gold | 51% |
| 8 | Rio Tinto | 49% |

| Aktivlərin Gəlirlik Əmsalı | | |
|---|---|---|
| 1 | AzerGold CJSC | 11% |
| 2 | Anglo Asian PLC | 11% |
| 3 | BHP | 9% |
| 4 | Anglo American | 8% |
| 5 | Rio Tinto | 8% |
| 6 | Kinross gold | 8% |
| 7 | Newmont | 7% |
| 8 | Newcrest Minig | 5% |

[1] Faiz, vergi və amortizasiya hesablanmazdan əvvəlki mənfəət marjası.

| | | |
|---|---|---|
| 9 | Newcrest Minig | 45% |
| 10 | Gold fields | 36% |
| 11 | Anglo American | 33% |
| 12 | Fresnillo PLC | 32% |

| | | |
|---|---|---|
| 9 | Fresnillo PLC | 4% |
| 10 | Yamana gold | 3% |
| 11 | Gold fields | 3% |
| 12 | Eldorado gold | 2% |

6.4. **Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onu əsaslandırması:**

6.3 bəndində qeyd olunan rəqəmlər müvafiq olaraq birbaşa həmin şirkətlərin veb səhifəsindən əldə olunaraq hesablanmışdır.

| | |
|---|---|
| **Newmont** | **https://www.newmont.com** |
| **Yamana gold** | **https://yamana2021rd.q4web.com** |
| **Anglo Asian PLC** | **https://www.angloasianmining.com** |
| **BHP** | **https://www.bhp.com** |
| **Kinross gold** | **https://www.kinross.com** |
| **Eldorado gold** | **https://www.eldoradogold.com** |
| **Rio Tinto** | **https://www.riotinto.com** |
| **Newcrest Minig** | **https://www.newcrest.com** |
| **Gold fields** | **https://www.goldfields.com** |
| **Anglo American** | **https://www.angloamerican.com** |
| **Fresnillo PLC** | **https://www.fresnilloplc.com** |

## 7. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK

7.1. **Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:**

**“Daşkəsən Dəmir Filiz” Məhdud Məsuliyyətli Cəmiyyəti.**

✓ Azərbaycan Respublikası Prezidentinin 6 avqust 2020-ci il tarixli 2202 nömrəli Sərəncamı ilə Daşkəsən dəmir filizi sahəsinin istismara verilməsi ilə əlaqədar ilkin qiymətləndirmə sənədinin hazırlanması “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinə həvalə edilmişdir.

✓ Azərbaycan Respublikası Prezidentinin 01 sentyabr 2020-ci il tarixli 2245 nömrəli Sərəncamı ilə “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinə ölkə ərazisində dəmir filizi yataqlarının öyrənilməsini, tədqiqini, kəşfiyyatını, işlənilməsini və idarə olunmasını, bu sahədə yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın

müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetirilməsini təmin etmək tapşırılmışdır.

- ✓ Sözügedən sərəncamlardan irəli gələrək Emitent tərəfindən "Daşkəsən Dəmir Filiz" Məhdud Məsuliyyətli Cəmiyyəti ( bundan sonra – "DDF" MMC) təsis edilmiş və 14 dekabr 2020-ci il tarixində dövlət qeydiyyatına alınmışdır.
- ✓ "DDF" MMC-nin yeganə təsisçisi və bu Emissiya Prospekti dərc edildiyi tarixə yeganə payçısı Emitentdir.
- ✓ "DDF" MMC-nin əsas məqsədləri qara metal filizi yataqlarının öyrənilməsini, tədqiqini, kəşfiyyatını, işlənilməsini və idarəolunmasını, bu sahədə yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirməkdən ibarətdir.

**"AzerBlast" Məhdud Məsuliyyətli Cəmiyyəti**

- ✓ "AzerBlast" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra – "AzerBlast" MMC) Emitent və digər təsisçi tərəfindən təsis edilmiş və 09 mart 2021-ci il tarixində dövlət qeydiyyatına alınmışdır.
- ✓ "AzerBlast" MMC-nin təsis edildiyi vaxtdan bu Emissiya Prospekti dərc edildiyi tarixədək 51% payı Emitentə, digər 49% isə "DM SERVİS" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsusdur.
- ✓ "AzerBlast" MMC-nin əsas məqsədləri ölkə ərazisində sənaye partlayıcı maddələrin istehsalı, istifadəsi, satışı və ixracı üzrə fəaliyyətin təşkili, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirməkfən ibarətdir.

**7.2. Emitentin qrupdakı digər müəssisələrdən asılı olduğu təqdirdə bu barədə məlumat:** Emitent hər hansı qrupa daxil deyil, asılılıq mövcud deyil.

## 8. TENDENSİYALAR BARƏDƏ MƏLUMAT

**8.1. Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən Emitentin emissiya prospektində mənfi dəyişikliyin olub-olmaması barədə məlumat:** Maliyyə hesabatlarının son dərc olunma tarixindən (22.11.2023) etibarən emissiya prospektinə mənfi təsir edə biləcək hər hansı bir hadisə baş verməmişdir.

**8.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:**

Cari maliyyə ilində Emitentin fəaliyyətinə təsir etmə ehtimalı olan tendensiyalara aşağıdakıları aid etmək olar:

**İnflyasiya**

İnflyasiya yüksəldikdə valyutanın dəyəri aşağı düşür və buna görə də investorlar pullarını qızıl şəklində saxlamağa meylli olur. Odur ki, ABŞ dolları və digər ehtiyat valyutalarla birlikdə qızıl da ehtiyat bazarının alətlərindən biridir. Buna görə,

valyutaların birinin (məsələn, dolların) məzənnəsi digər ehtiyat valyutalara nisbətdə azalarsa, qızıl dəyərsizləşən valyutaya nisbətdə bahalaşa bilər.

**Faiz dərəcələri**

Qızıl faiz dərəcələrinə qarşı həssasdır, çünki istiqraz və səhmlərdən fərqli olaraq real vaxtda gəlir gətirmir. Faiz dərəcələri ilə qızılın qiyməti arasında mənfi korrelyasiyanı müşahidə etmək olar: istiqrazların gəlirliliyi artdıqda, qızıl ucuzlaşır.

**Tələb və təklif**

Mərkəzi banklar, böyük investorlar və fond bazarları bazara əhəmiyyətli dərəcədə təsir göstərirlər. Bu iştirakçıların hərəkətləri zərgərlik və investisiya alətləri kimi qızıla olan təlabatı dəyişdirir.

**Geosiyasi risklər və qeyri-müəyyənlik**

Qeyri-müəyyənlik riskin yaranmasının xarakterik səbəbidir. Bu hallarda geosiyasi risklər və ya iqtisadiyyatın istənilən sahəsində qeyri-müəyyənlik zamanı qızıl təhlükəsiz sərmayə rolunu oynayır.

## 9. GƏLİR PROQNOZU HAQQINDA HESABAT

**Gəlir proqnozu barədə məlumat:** Mövcud deyil.

## **10.** EMİTENTİN İDARƏETMƏ VƏ NƏZARƏT ORQANLARI

**10.1 Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə məlumatlar:**

Cəmiyyətin ali idarəetmə orqanı Ümumi Yığıncaqdır. Ümumi Yığıncağın səlahiyyətlərinin icrası Azərbaycan Respublikası Prezidentinin “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 1047 nömrəli Sərəncamına uyğun olaraq, Azərbaycan Respublikası Prezidenti və Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan İnvestisiya Holdinqinə həvalə olunmuşdur:

Azərbaycan Respublikası Prezidentinə münasibətdə:

- Cəmiyyətin yenidən təşkili və ləğvi;
- Cəmiyyətin Müşahidə Şurasının və icra orqanının üzvlərinin, o cümlədən rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan İnvestisiya Holdinqinə münasibətdə:

- Cəmiyyətin nizamnaməsinin və strukturunun təsdiq edilməsi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi;
- Cəmiyyətin dividend siyasətinin təsdiq edilməsi;
- Cəmiyyətin qiymətli kağızlarının buraxılması barədə qərar qəbul edilməsi;
- Cəmiyyətin illik hesabatlarının, maliyyə hesabatlarının təsdiqi, mənfəətinin və zərərinin bölüşdürülməsi;
- Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun

rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi.

**10.2 Emitentin Müşahidə Şurası barədə məlumat.**

Cəmiyyətin Müşahidə Şurası Cəmiyyətin fəaliyyəti üzərində ümumi rəhbərliyi və nəzarəti həyata keçirən orqandır. Müşahidə Şurasının üzvləri aşağıdakı kimidir:

1. Azərbaycan İnvestisiya Holdinqinin sədri, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi Mətin Eynullayev – Müşahidə Şurasının Sədri,
2. Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli – Müşahidə Şurasının üzvü.
3. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Aparatının Ekoloji siyasət şöbəsinin müdiri Faiq Mütəllimov – Müşahidə Şurasının üzvü,
4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdiri Vüqar Məcidli - Müşahidə Şurasının üzvü,
5. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Koordinasiya Ofisinin layihələr üzrə baş meneceri Rəşad İsmayılov – Müşahidə Şurasının üzvü,

**10.3 Cəmiyyətin Müşahidə Şurası aşağıda qeyd olunan səlahiyyətlərə malikdir:**

- Cəmiyyətin uzunmüddətli inkişaf strategiyasını təsdiq etmək;
- İdarə Heyətinin fəaliyyətinə nəzarət etmək, AİH-nin təsdiq etdiyi qiymətləndirmə sisteminə uyğun olaraq onun fəaliyyətini qiymətləndirmək;
- İdarə Heyətinin üzvlərinin, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə yol verilməyən hallar istisna olmaqla, Müşahidə Şurasının üzvlərinin mükafatlandırılması qaydasını müəyyən etmək;
- Cəmiyyətin korporativ strukturunun və ştat cədvəlinin təsdiq edilməsinə razılıq vermək, törəmə və asılı təsərrüfat cəmiyyətlərini yaratmaq, onların nizamnamələrini təsdiq etmək, rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad etmək;
- Cəmiyyətin Audit Komitəsini və digər komitələrini yaratmaq, onların əsasnamələrini təsdiq etmək, rəhbərlərini və üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;
- Cəmiyyətin risklərin idarə olunması, daxili audit və uyğunluğa nəzarət xidmətlərini yaratmaq, onların əsasnamələrini təsdiq etmək;
- Cəmiyyətin mərkəzləşdirilmiş fondlarını yaratmaq və onlardan istifadə qaydalarını müəyyən etmək;
- Cəmiyyətin fəaliyyətinin ayrı-ayrı sahələri üzrə siyasəti və səlahiyyət hədlərinə daxil etdiyi daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını) təsdiq etmək;
- Cəmiyyətin illik səmərəlilik göstəriciləri üzrə hədəfləri, habelə likvidliyin hədəf göstəricilərini, borcalmanın yuxarı həddini, maliyyə dayanıqlılığının artırılmasına dair hədəf göstəricilərini, eləcə də ortamüddətli biznes planının əsas göstəricilərini təsdiq etmək;

- Borcun cəlb edilməsi üzrə səlahiyyət hədlərinin təsdiqi və öz səlahiyyət hədləri daxilində borcun cəlb olunması barədə qərarın qəbul edilməsi, kredit təşkilatlarından maliyyə vəsaitlərinin cəlb olunması və banklara maliyyə vəsaitlərinin qoyuluşu üzrə hədlərin müəyyənləşdirilməsi;
- Ümumi Yığıncağın səlahiyyətlərinə aid edilmiş hallar istisna olmaqla, Cəmiyyətin investisiya layihələrini və onların icrasına dair hesabatları, eləcə də Cəmiyyətin inkişaf strategiyasının və biznes planının əsas göstəricilərinin icrasına dair hesabatı təsdiq etmək;
- Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması ilə bağlı Ümumi Yığıncağa təkliflər vermək;
- Aidiyyəti şəxslərlə bağlanması nəzərdə tutulan və dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizinədək hissəsini təşkil edən əqdlərin təsdiqi ilə bağlı qaydaları (hədləri) müəyyən etmək və öz səlahiyyət hədlərinə daxil etdiyi aidiyyəti şəxslərlə əqdləri təsdiq etmək;
- Cəmiyyətin büdcəsini, o cümlədən xərclər və gəlirlər smetasını təsdiq etmək və onun icrasına nəzarət etmək;
- Cəmiyyətin fəaliyyətinin müntəzəm monitorinqinə və qiymətləndirilməsinə imkan verən hesabatlılıq sistemini yaratmaq, normativ hüquqi aktlarda başqa qayda nəzərdə tutulmadığı halda, Cəmiyyətin maliyyə və digər hesabatlarının formasını təsdiq etmək və təqdim edilməsi müddətlərini müəyyənləşdirmək;
- Cəmiyyətin fəaliyyət istiqamətinə aid məsələlərlə bağlı monitorinq aparmaq və onun nəticələrinə əsasən tədbirlər görmək;
- Cəmiyyətin müstəqil auditorunu müəyyən etmək, bununla bağlı müqavilənin bağlanmasına, onun dəyişdirilməsinə və ona xitam verilməsinə razılıq vermək;
- Cəmiyyətin Audit Komitəsinin, daxili audit xidmətinin və müstəqil auditorun yoxlamalarının nəticələrinə dair tədbirlər görmək;
- Cəmiyyətdə mənfəətin və zərərin bölgüsünü, illik hesabatları və maliyyə hesabatlarını təsdiq üçün Ümumi Yığıncağa təqdim etmək;
- Mövcud normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, Cəmiyyətin aktivlərinin idarəetməyə verilməsi və özəlləşdirilməsi ilə bağlı əqdlərin bağlanmasına razılıq vermək;
- Cəmiyyətin filial və nümayəndəliklərini yaratmaq, onların əsasnamələrini təsdiq etmək, rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad etmək;
- Cəmiyyətin dayanıqlı inkişafa dair hesabatını təsdiq etmək;
- Müşahidə Şurasının iclaslarının keçirilməsi qaydasını təsdiq etmək;
- Nizamnamə ilə və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə, habelə Müşahidə Şurası haqqında AİH-in təsdiq etdiyi əsasnamə ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək.

**10.4 Emitentin İdarə Heyəti barədə məlumat.**

Emitentin İdarə Heyəti onun kollegial icra orqanıdır. İdarə Heyətinin tərkibi Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən 5 (beş) üzvdən – Cəmiyyətin sədrindən və digər 4 üzvdən (sədr müavinləri) ibarətdir. İdarə Heyətinin fəaliyyətinə Cəmiyyətin sədri rəhbərlik edir. İdarə Heyətinin üzvləri aşağıdakı kimidir:

1. İdarə Heyətinin sədri – İbrahimov Zakir Zaur oğlu;
2. İdarə Heyətinin sədr müavini – Fərzəliyev Xəyyam Oqtay oğlu;
3. İdarə Heyətinin sədr müavini – Məmmədov Oqtay Xanlar oğlu.

**10.5 İdarə Heyəti aşağıda qeyd olunan səlahiyyətlərə malikdir:**

- Cəmiyyətin fəaliyyətini təşkil etmək;
- Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi məqsədilə Müşahidə Şurasına təkliflər vermək və sənədlər (o cümlədən Cəmiyyətin illik və rüblük hesabatlarını, habelə strateji planlarının icrası barədə hesabatları) təqdim etmək;
- Cəmiyyətin Nizamnaməsinə, habelə nizamnamə kapitalına dəyişikliklər edilməsi barədə Ümumi Yığıncağa təkliflər verilməsi üçün Müşahidə Şurasına müraciət etmək;
- Cəmiyyətin inkişaf strategiyasının formalaşdırılması barədə Müşahidə Şurasına təkliflər vermək;
- Ümumi Yığıncağın və Müşahidə Şurasının qərarlarının icrasını təmin etmək;
- Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında Ümumi Yığıncağa təkliflər verilməsi üçün Müşahidə Şurasına müraciət etmək, həmçinin Müşahidə Şurası tərəfindən müəyyən edilmiş səlahiyyət hədləri daxilində aidiyyəti şəxslə əqdi təsdiq etmək;
- Cəmiyyətin strukturuna daxil olan qurumların, törəmə və asılı təsərrüfat cəmiyyətlərin fəaliyyətinə dair illik iş planlarını və onların icra vəziyyətinə dair hesabatları təsdiq etmək;
- Cəmiyyətin strukturuna daxil olan qurumların, törəmə və asılı təsərrüfat cəmiyyətlərinin istehsal və təsərrüfat funksiyalarının tam və ya qismən mərkəzləşdirilməsinə dair qərar qəbul etmək;
- Cəmiyyətin strukturuna daxil olan qurumlar, törəmə və asılı təsərrüfat cəmiyyətləri arasında mübahisələrin həlli üçün tədbirlər görmək;
- Cəmiyyətin xarici dövlətlərin aidiyyəti qurumları ilə birgə işinin məqsədəuyğunluğu barədə qərar qəbul etmək;
- Cəmiyyətin mərkəzləşdirilmiş fondlarının yaradılmasına və istifadəsinə dair Müşahidə Şurasına təkliflər vermək;
- İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

- Nizamnamə ilə Ümumi Yığıncağın və Müşahidə Şurasının səlahiyyətlərinə aid edilməyən digər məsələləri həll etmək.

**10.6 Xidməti vəzifələr ilə şəxsi maraqlar arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:** Maraqlar toqquşması Cəmiyyətin "İşə qəbul zamanı şəxslərin eyniləşdirilməsi və verifikasiyası, habelə işçilərin qarşılıqlı əlaqələrinin tənzimlənməsinə dair Qaydalar" və "Cəmiyyətin əməkdaşlarının etik davranış Qaydaları" ilə tənzimlənir. Maraqlar toqquşması dedikdə, Cəmiyyətin işçiləri tərəfindən əmək funksiyaları çərçivəsində özünün yaxud yaxın qohumlarının şəxsi və ya maddi maraqlarına toxunan yaxud toxuna bilən qərarların qəbul edilməsi və ya qərarların qəbulunda iştirak, habelə obyektiv qərarların qəbul edilməsinə təsir göstərə biləcək vəziyyət və şəraitlər nəzərdə tutulur. İşçilərin şəxsi və ya maddi maraqları yaxud bu yöndə fəaliyyəti onların Cəmiyyət üçün obyektiv qərarlar qəbul etməyinə təsir göstərməməli işçilər tərəfindən maraqların toqquşmasına səbəb ola biləcək və ya maraqların toqquşması təəssüratını yarada biləcək hallar barədə birbaşa Rəhbərə məlumat verilməlidir.

## 11. İDARƏ HEYƏTİNİN İŞGÜZAR PRAKTİKASI

**11.1. Audit və mükafatlandırma (olduqda) komitələrin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:**

**Audit komitəsi** Müşahidə Şurasının məşvərətçi orqanıdır və Müşahidə Şurasının səlahiyyətlərinə daxil olan və ya "AzerGold" QSC-nin İdarə Heyətinin fəaliyyətinə nəzarət üçün Müşahidə Şurası tərəfindən müzakirə olunan məsələlərin əsaslı şəkildə tədqiq olunması və bununla bağlı Müşahidə Şurasına zəruri tövsiyələrin hazırlanması məqsədi ilə yaradılmışdır. Audit komitəsi Müşahidə Şurasına tabedir, Müşahidə Şurası tərəfindən və Əsasnamə ilə ona verilən səlahiyyətlər çərçivəsində fəaliyyət göstərir.

Audit komitəsi ən azı 3 (üç) üzvdən ibarət olmalı, üzvlərindən biri AİH-in nümayəndəsi (AİH-in təqdimatına əsasən AİH-in əməkdaşı və ya kənar şəxs) olmalıdır. Audit Komitəsinin sədri Audit Komitəsinin Müşahidə Şurasının üzvü olan və ya AİH-in təqdimatına əsasən seçilən üzvlərinin sırasından təyin edilir. Audit Komitəsinin üzvlərindən ən azı biri mühasibat uçotu və maliyyə hesabatlarının hazırlanması və (və ya) maliyyə və (və ya) audit sahəsində uzunmüddətli iş təcrübəsinə malik olmalıdır. Həmçinin müvafiq sahədə xüsusi biliklərə malik ekspertlər Audit komitəsinin işinə səsvermə hüququ olmamaqla cəlb edilə bilər.

Audit komitəsi "AzerGold" QSC-nin təsisçisinin maraqları çərçivəsində fəaliyyət göstərir və aşağıdakı səlahiyyətləri həyata keçirməklə, Müşahidə Şurasına köməklik göstərir:

- "AzerGold" QSC-nin audit siyasətinin və strategiyasının hazırlanması, həyata keçirilməsi və auditor nəzarətinin təşkili;

- “AzerGold” QSC-nin maliyyə və iqtisadi fəaliyyətinə, o cümlədən maliyyə hesabatlarının tamlığı və düzgünlüyünə səmərəli auditor nəzarəti sisteminin qurulması;
- “AzerGold” QSC-nin daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin etibarlılığına və səmərəliliyinə, habelə korporativ idarəetmə sahəsində sənədlərin və tapşırıqların icrasına nəzarət;
- “AzerGold” QSC-da kənar və daxili auditin müstəqilliyinə, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə riayət olunmasının təmin edilməsi prosesinə nəzarət;
- İdarə Heyəti və aidiyyəti struktur bölmələri ilə birlikdə kənar auditorun hesabatının təhlil və müzakirə edilməsi, çatışmazlıqların və pozuntuların aradan qaldırılması üçün tədbirlər planının hazırlanması üzrə Müşahidə Şurasına təkliflər verilməsi;
- Əsasnamə ilə Audit komitəsinin səlahiyyətlərinə daxil edilən məsələlərə dair hər hansı araşdırma başladılması və ya həyata keçirilməsi;
- “AzerGold” QSC-nin Nizamnaməsindən, bu Əsasnamədən və “AzerGold” QSC-nin digər daxili sənədlərindən irəli gələn məsələlərin həyata keçirilməsi.

Audit Komitəsinin tərkibi aşağıdakı kimi təsdiq edilmişdir:
- Anar Novruzov (AİH-nin nümayəndəsi) – sədr;
- Rəşad İsmayılov – üzv;
- Faiq Mütəllimov – üzv;
- Rəşadət Məmmədov – üzv.

**Təyinat və mükafatlandırma komitəsi** Müşahidə Şurasının məşvərətçi orqanıdır və Müşahidə Şurasının səlahiyyətlərinə daxil olan və ya İdarə Heyətinin fəaliyyətinə nəzarət üçün Müşahidə Şurası tərəfindən müzakirə olunan məsələlərin əsaslı şəkildə tədqiq olunması və bununla bağlı Müşahidə Şurasına və İdarə Heyətinə zəruri tövsiyələrin hazırlanması məqsədi ilə yaradılır. Təyinat və mükafatlandırma komitəsi Müşahidə Şurasına tabedir, Müşahidə Şurası tərəfindən və Əsasnamə ilə ona verilmiş səlahiyyətlər çərçivəsində fəaliyyət göstərir.

Təyinat və mükafatlandırma komitəsinin tərkibi Müşahidə Şurasının üzvlərindən və Təyinat və mükafatlandırma komitəsində işləmək üçün peşəkar biliklərə malik və idarəetmə bacarığı və təcrübəsi olan şəxslərdən formalaşdırılır. Təyinat və mükafatlandırma komitəsi ən azı 3 (üç) üzvdən ibarət olmalı, üzvlərindən biri Müşahidə Şurasının üzvləri arasından seçilir. İcra orqanının üzvləri Təyinat və mükafatlandırma komitəsinin tərkibinə səsvermə hüququ olmadan üzv təyin oluna bilər.

Təyinat və mükafatlandırma komitəsi “AzerGold” QSC-nin təsisçisinin maraqları çərçivəsində fəaliyyət göstərir və aşağıdakı məsələlər üzrə tövsiyələr hazırlamaqla Müşahidə Şurasına köməklik göstərir:

- Müşahidə Şurasının və İdarə Heyətinin fəaliyyətinin davamlılığının planlaşdırılması;
- Müşahidə Şurasının, İdarə Heyətinin və digər işçilərin fəaliyyətlərinin daimi və obyektiv qiymətləndirilməsinin təmin edilməsi;
- Effektiv kadr siyasətinin, əməkhaqqı və mükafatlandırma sisteminin, eləcə də vəzifəli şəxslər və “AzerGold” QSC-nin işçilərinə sosial dəstəyin, onların peşəkar təlim və inkişaflarının təmin edilməsi;
- “AzerGold” QSC-nin Nizamnaməsindən, Əsasnamədən və “AzerGold”a QSC-nin digər daxili sənədlərindən irəli gələn məsələlər.

Təyinat və mükafatlandırma komitəsinin tərkibi aşağıdakı kimi təsdiq edilmişdir:

- Günel Cavadova (AİH-nin nümayəndəsi);
- Rəşad İsmayılov – üzv;
- Vüqar Məcidli – üzv;
- Faiq Mütəllimov – üzv.

**11.2. Emitentin qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda, bu barədə izahat:** Cəmiyyətin fəaliyyəti Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının 8 iyul 2022-ci il tarixli 17 nömrəli Qərarı ilə təsdiq edilmiş Nizamnaməsi, AR Mülki Məcəllə və əlaqəli qanunvericilik aktları ilə tənzimlənməkdədir. Cəmiyyət öz fəaliyyətini AİH tərəfindən təsdiq edilmiş “AzerGold” QSC-nin Korporativ İdarəetmə Standartları və qanunvericilikdə nəzərdə tutulan tələblərə müvafiq olaraq təşkil etmişdir.

## 12. EMİTENTİN NİZAMNAMƏ KAPİTALINDA MÜHÜM İŞTİRAK PAYINA SAHİB OLAN ŞƏXSLƏR

12.1. **Emitentin nizamnamə kapitalında 10 (on) faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti:** Emitentin yeganə təsisçisi Azərbaycan Respublikasıdır və səhmlərin 100 (bir yüz) faizi dövlətə məxsusdur.

12.2. **Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən Emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:** Emitentin ali idarəetmə orqanı Səhmdarların Ümumi yığıncağıdır. Emitentin idarəolunması və işinə nəzarəti Müşahidə Şurası həyata keçirir. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən aidiyyəti şəxslərə əqdlərin bağlanması qanunvericiliyə uyğun tənzimlənir;

12.3. **Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirə bilən və Emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Emitentin yeganə təsisçisi səhmlərin 100 (bir yüz) faizinə sahib olmaqla Azərbaycan Respublikasıdır.

## 13. EMİTENTİN MALİYYƏ MƏLUMATLARI

13.1. **Emitentin başa çatmış son üç maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:** Sənəd bu Emissiya Prospektinə əlavə edilmişdir.

***Konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabat (USD)***

| | 31 dekabr 2022 | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əsas vəsaitlər | 143,857 | 43,577 | 21,210 |
| İstifadə hüquqlu aktivlər | 810 | 1,396 | 1,654 |
| Kəşfiyyat və qiymətləndirmə aktivləri | 34,767 | 18,987 | 22,156 |
| Qeyri-maddi aktivlər | 40,478 | 44,044 | 44,856 |
| Ticarət və digər debitor borcları | 3,093 | - | - |
| Verilmiş avanslar | 556 | 6,121 | 2,887 |
| Təxirə salınmış vergi aktivləri | 80 | 197 | 943 |
| **Cəmi uzunmüddətli aktivlər** | **223,641** | **114,322** | **93,706** |
| **Qısamüddətli aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6,801 | 56,974 | 32,099 |
| Müddətli depozitlər | 62,062 | - | - |
| Verilmiş avanslar | 5,856 | 3,890 | 6,233 |
| Ticarət və digər debitor borcları | 3,554 | 135 | - |
| Mal-material ehtiyatları | 36,564 | 20,683 | 6,230 |
| Sair qısamüddətli aktivlər | 19,387 | 4,918 | 1,610 |
| **Cəmi qısamüddətli aktivlər** | **134,224** | **86,600** | **46,172** |
| **CƏMİ AKTİVLƏR** | **357,865** | **200,922** | **139,878** |

| | | | |
|---|---|---|---|
| **ÖHDƏLİKLƏR və KAPİTAL** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Ətraf mühitin bərpası öhdəliyi | 11,661 | 8,958 | 6,469 |
| İcarə öhdəlikləri | 405 | 737 | 1,197 |
| Təxirə salınmış vergi öhdəlikləri | 416 | - | - |
| Borc vəsaitləri | 26,398 | 20,291 | 20,429 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **38,880** | **29,986** | **28,095** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Ticarət və digər kreditor borcları | 13,333 | 7,810 | 7,889 |
| Borc vəsaitləri | 30,672 | - | - |
| İcarə öhdəlikləri | 484 | 781 | 579 |
| Təxirə salınmış gəlirlər | - | 600 | - |
| Cari mənfəət vergisi öhdəliyi | 9,145 | 807 | 4,752 |
| Sair qısamüddətli öhdəliklər | 1,801 | 1,128 | 428 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **55,437** | **11,127** | **13,648** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **94,315** | **41,113** | **41,743** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 36,471 | 36,471 | 21,765 |
| Əlavə kapital qoyuluşu | 106,532 | 33,003 | 7,767 |
| Bölüşdürülməmiş mənfəət | 119,621 | 89,260 | 68,603 |
| Qrupun səhmdarlarına aid olan kapital | 262,624 | 158,734 | 98,135 |
| Nəzarət olunmayan iştirak payı | 926 | 1,075 | - |
| **CƏMİ KAPİTAL** | **263,550** | **159,809** | **98,135** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **357,865** | **200,922** | **139,878** |

***Konsolidə edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat (USD)***

| | 31 dekabr 2022 | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|---|
| **GƏLİRLƏR** | | | |
| Müştərilərlə müqavilələr üzrə gəlirlər | 123,646 | 112,074 | 110,204 |
| Satışların maya dəyəri | (65,336) | (51,700) | (36,699) |
| Ümumi mənfəət | **58,310** | **60,374** | **73,505** |
| Ümumi və inzibati xərclər | (21,334) | (13,361) | (9,903) |
| Kəşfiiyyat və qiymətləndirmə aktivlərinin dəyərsizləşməsi | (3,582) | (7,071) | (6,308) |
| Qeyri-maddi aktivlər və əsas vəsaitlər üzrə dəyərsizləşmə zərəri | - | (3,058) | 1,829 |
| Maliyyə aktivləri üzrə xalis dəyərsizləşmə zərəri | (805) | - | - |
| Sair gəlirlər | 7,074 | 2,976 | 700 |
| **Əməliyyat mənfəəti** | **39,663** | **39,860** | **59,823** |
| Maliyyə xərcləri | (1,072) | (1,000) | (2,017) |
| Maliyyə gəlirləri | 984 | - | - |
| **Vergidən əvvəlki mənfəət** | **39,575** | **38,860** | **57,806** |
| Mənfəət vergisi xərci | (9,363) | (9,458) | (9,596) |
| **İL ÜZRƏ MƏNFƏƏT** | **30,212** | **29,402** | **48,210** |
| | - | | |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | **30,212** | **29,402** | **48,210** |

**Mənfəətin/(zərərin):**

| | | | |
|---|---|---|---|
| - Qrupun səhmdarlarına aid olan hissəsi | 30,361 | 29,481 | 48,210 |
| - Nəzarət olunmayan iştirak payına aid olan hissəsi | (149) | (79) | - |
| **İl üzrə mənfəət** | **30,212** | **29,402** | **48,210** |

***Konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat (USD)***

| | 31 dekabr 2022 | 31 dekabr 2021 | 31 dekabr 2020 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Vergidən əvvəlki mənfəət | 39,575 | 38,860 | 57,806 |
| Düzəlişlər: | | | |
| Faiz xərcləri | 707 | 735 | 1,762 |
| Faiz gəlirləri | (984) | - | - |
| Əsas vəsaitlərin amortizasiyası və tükənməsi | 11,710 | 11,923 | 6,177 |
| İstifadə hüquqlu aktivlərin amortizasiyası | 744 | 694 | 579 |
| Qeyri-maddi aktivlərin amortizasiyası və tükənməsi | 3,924 | 6,246 | 2,571 |
| Kəşfiyyat və qiymətləndirmə aktivlərinin dəyərsizləşməsi | 3,582 | 7,071 | 6,308 |
| Əsas vəsaitlərin dəyərsizləşməsi | - | 8,249 | - |
| Qeyri-maddi aktivlərin dəyərsizləşməsi | - | 5,926 | 11,117 |
| Maliyyə aktivləri üzrə xalis dəyərsizləşmə zərəri | 805 | - | - |
| Əvvəlki illərdə dəyərsizləşmiş kəşfiyyat hüquqlarının qaytarılması | - | (11,117) | (12,946) |
| Mədən yataqlarının satılması üzrə gəlir | (1,771) | - | - |
| Sair qeyri-pul əməliyyat gəlirləri | (882) | - | - |
| Ətraf mühitin bərpası öhdəliyi üzrə diskontun amortizasiyası | 365 | 265 | 255 |
| Məzənnə fərqi üzrə xalis zərər | 54 | 38 | 19 |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **57,829** | **68,890** | **73,648** |

| | | | |
|---|---|---|---|
| Ticarət və digər debitor borclarında artım | (6,046) | (135) | 10 |
| Sair qısamüddətli aktivlərdə artım | (14,469) | (3,308) | (5,622) |
| Mal-material ehtiyatlarında artım | (14,486) | (14,453) | 1,569 |
| Verilmiş qısamüddətli avanslarda (artım)/azalma | (1,966) | 2,343 | (4,928) |
| Təxirə salınmış gəlirlərdə (azalma)/artım | (600) | 600 | - |
| Ticarət və digər kreditor borclarında artım/(azalma) | 5,523 | (79) | 5,379 |
| Sair qısamüddətli öhdəliklərdə artım | 672 | 701 | 4,849 |
| **Dövriyyə kapitalında dəyişikliklər** | **(31,372)** | **(14,331)** | **1,257** |
| Ödənilmiş mənfəət vergisi | (491) | (10,353) | (1,176) |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | **25,966** | **44,206** | **73,729** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlər və mədənlərin işlənilməsi üzrə məsrəflər | (101,651) | (28,749) | (9,473) |
| Verilmiş uzunmüddətli avanslar | 5,565 | (3,234) | - |
| Kəşfiyyat və qiymətləndirmə aktivləri üzrə investisiyalar | (27,879) | (17,588) | (16,490) |
| Mədən yataqlarının satılması üzrə gəlir | 1,180 | - | - |
| Sair qeyri-maddi aktivlərə investisiya qoyuluşu | (358) | (243) | (114) |
| Müddətli depozitlərə investisiya qoyuluşu | (61,765) | - | - |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | **(184,908)** | **(49,814)** | **(26,077)** |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Nizamnamə kapitalına əlavə | - | 1,154 | 14,586 |
| Əlavə kapital qoyuluşu | 73,529 | 31,118 | 7,767 |
| Kreditlər və borc vəsaitləri üzrə daxilolmalar | 74,912 | - | 26,360 |
| İcarə öhdəliklərinin ödənilməsi | (828) | (765) | (579) |
| Kreditlər və borc vəsaitlərinin ödənilməsi | (38,014) | - | (78,420) |

| | | | |
|---|---|---|---|
| Ödənilmiş faizlər | (800) | (1,000) | (2,382) |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | **108,799** | **30,507** | **(32,668)** |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | (30) | (24) | (22) |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **56,974** | **32,099** | **17,137** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **6,801** | **56,974** | **32,099** |

***Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat***

| *Min ABŞ dolları ilə* | **Qrupun səhmdarlarına aid olan hissə** | | | | | |
|---|---|---|---|---|---|---|
| | **Nizamnamə kapitalı** | **Əlavə kapital qoyuluşu** | **Bölüşdürülməmiş mənfəət** | **Cəmi** | **Nəzarət olunmayan iştirak payı** | **Cəmi kapital** |
| **1 Yanvar 2020-ci il tarixinə qalıq** | **7,179** | **-** | **20,393** | **27,572** | **-** | **27,572** |
| İl üzrə mənfəət (zərər) | - | - | 48,210 | 48,210 | - | 48,210 |
| Nizamnamə kapitalına əlavə | 14,586 | - | - | 14,586 | - | 14,586 |
| Əlavə kapital qoyuluşunda artım | - | 7,767 | - | 7,767 | - | 7,767 |
| **31 Dekabr 2020-ci il tarixinə qalıq** | **21,765** | **7,767** | **68,603** | **98,135** | **-** | **98,135** |
| **1 Yanvar 2021-ci il tarixinə qalıq** | **21,765** | **7,767** | **68,603** | **98,135** | **-** | **98,135** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Nizamnamə kapitalına əlavə | 14,706 | (5,882) | (8,824) | - | 1,154 | 1,154 |
| Əlavə kapital qoyuluşunda artım | - | 31,118 | - | 31,118 | - | 31,118 |
| İl üzrə mənfəət (zərər) | - | - | 29,481 | 29,481 | (79) | 29,402 |
| **31 Dekabr 2021-ci il tarixinə qalıq** | **36,471** | **33,003** | **89,260** | **158,734** | **1,075** | **159,809** |
| | | | | | | |
| **1 Yanvar 2022-ci il tarixinə qalıq** | **36,471** | **33,003** | **89,260** | **158,734** | **1,075** | **159,809** |
| Nizamnamə kapitalına əlavə | - | - | - | - | - | - |
| Əlavə kapital qoyuluşunda artım | - | 73,529 | - | 73,529 | - | 73,529 |
| İl üzrə mənfəət (zərər) | - | - | 30,361 | 30,361 | (149) | 30,212 |
| **31 Dekabr 2022-ci il tarixinə qalıq** | **36,471** | **106,532** | **119,621** | **262,624** | **926** | **263,550** |

**13.2. Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları:** Emitent 05.07.2016-cı il tarixindən fəaliyyət göstərir.

**13.3. Maliyyə hesabatları MHBS-yə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:** Maliyyə Hesabatları MHBS-yə uyğun aparılır.

**13.4. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** Cəmiyyətimiz tərəfindən konsolidə olunmuş maliyyə hesabatı (13.1 bəndində təqdim olunur) hazırlanır.

**13.5. Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarım illik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə, onlar emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir:** Emitentin rüblük və yarımillik maliyyə hesabatları audit olunmur. Audit olunmamış yarımillik maliyyə hesabatı 13.6 bəndində təqdim olunur.

**13.6. Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarımillik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:** Emissiya prospektinə Audit olunmamış yarımillik maliyyə hesabatları müvafiq dövr üzrə müqayisəli şəkildə tərtib olunmuş və əlavə edilmişdir.

***Konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabat (USD)***

| | 2023 - 6 ay | 2022 - 6 ay |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| **Uzunmüddətli aktivlər** | | |
| Əsas vəsaitlər | 168,578 | 47,491 |
| İstifadə hüquqlu aktivlər | 921 | 1,396 |
| Kəşfiyyat və qiymətləndirmə aktivləri | 55,005 | 28,934 |
| Qeyri-maddi aktivlər | 44,115 | 42,733 |
| Ticarət və digər debitor borcları | - | |
| Verilmiş avanslar | 5,555 | 25,515 |
| Təxirə salınmış vergi aktivləri | 617 | 198 |
| **Cəmi uzunmüddətli aktivlər** | **274,792** | **146,266** |
| **Qısamüddətli aktivlər** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 52,514 | 100,557 |
| Müddətli depozitlər | - | |

| | | |
|---|---|---|
| Verilmiş avanslar | 7,712 | 6,416 |
| Ticarət və digər debitor borcları | 5,147 | 142 |
| Mal-material ehtiyatları | 36,174 | 27,343 |
| Sair qısamüddətli aktivlər | 18,609 | 9,094 |
| **Cəmi qısamüddətli aktivlər** | **120,156** | **143,552** |
| **CƏMİ AKTİVLƏR** | **394,948** | **289,818** |
| **ÖHDƏLİKLƏR və KAPİTAL** | | |
| **Uzunmüddətli öhdəliklər** | | |
| Ətraf mühitin bərpası öhdəliyi | 11,765 | 8,958 |
| İcarə öhdəlikləri | 405 | 737 |
| Təxirə salınmış vergi öhdəlikləri | - | |
| Borc vəsaitləri | 72,861 | 20,291 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **85,032** | **29,986** |
| **Qısamüddətli öhdəliklər** | | |
| Ticarət və digər kreditor borcları | 26,649 | 7,980 |
| Borc vəsaitləri | 20,550 | |
| İcarə öhdəlikləri | 598 | 781 |
| Təxirə salınmış gəlirlər | - | 232 |
| Cari mənfəət vergisi öhdəliyi | 734 | 3,955 |
| Sair qısamüddətli öhdəliklər | 4,343 | 2,332 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **52,873** | **15,279** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **137,905** | **45,265** |
| **KAPİTAL** | | |
| Nizamnamə kapitalı | 137,356 | 36,471 |
| Əlavə kapital qoyuluşu | 5,647 | 106,532 |
| Bölüşdürülməmiş mənfəət | 113,222 | 101,550 |
| Qrupun səhmdarlarına aid olan kapital | 255,408 | 243,551 |

| | | |
|---|---|---|
| Nəzarət olunmayan iştirak payı | 818 | 1,002 |
| **CƏMİ KAPİTAL** | **257,043** | **244,553** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **394,948** | **289,818** |

***Konsolidə edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat (USD)***

| | 2023 - 6 ay | 2022 - 6 ay |
|---|---|---|
| **GƏLİRLƏR** | | |
| Müştərilərlə müqavilələr üzrə gəlirlər | 40,357 | 48,102 |
| Satışların maya dəyəri | (32,324) | (26,789) |
| Ümumi mənfəət | **8,033** | **21,312** |
| Ümumi və inzibati xərclər | (10,087) | (7,559) |
| Kəşfiiyyat və qiymətləndirmə aktivlərinin dəyərsizləşməsi | (949) | |
| Qeyri-maddi aktivlər və əsas vəsaitlər üzrə dəyərsizləşmə zərəri | - | |
| Maliyyə aktivləri üzrə xalis dəyərsizləşmə zərəri | - | |
| Sair əməliyyat xərclər | - | (67) |
| Sair gəlirlər | 1,693 | 1,077 |
| **Əməliyyat mənfəəti** | **(1,310)** | **14,763** |
| Faiz gəlirləri (xərcləri) | 77 | (400) |
| **Vergidən əvvəlki mənfəət** | **(1,233)** | **14,363** |
| Mənfəət vergisi xərci | 62 | (3,148) |
| | - | |
| **İL ÜZRƏ MƏNFƏƏT** | **(1,171)** | **11,215** |
| | - | |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | **(1,171)** | **11,215** |
| **Mənfəətin/(zərərin):** | | |

| | | |
|---|---|---|
| - Qrupun səhmdarlarına aid olan hissəsi | (1,063) | 11,288 |
| - Nəzarət olunmayan iştirak payına aid olan hissəsi | (108) | (73) |
| **İl üzrə mənfəət** | **(1,171)** | **11,215** |

***Konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat (USD)***

| | **2023 - 6 ay** | **2022 - 6 ay** |
|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | |
| Vergidən əvvəlki mənfəət | (1,233) | 14,363 |
| Düzəlişlər: | | |
| Faiz gəlirləri (xərcləri) | (69) | 400 |
| Əsas vəsaitlərin amortizasiyası və tükənməsi | 4,930 | 6,212 |
| İstifadə hüququlu aktivlərin amortizasiyası | - | |
| Qeyri-maddi aktivlərin amortizasiyası və tükənməsi | 1,528 | 1,351 |
| Kəşfiyyat və qiymətləndirmə aktivlərinin dəyərsizləşməsi | 949 | |
| Məzənnə fərqi üzrə xalis zərər | - | 17 |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **6,105** | **22,343** |
| Ticarət və digər debitor borclarında artım | 1,626 | (7) |
| Sair qısamüddətli aktivlərdə artım | (4,452) | (4,177) |
| Mal-material ehtiyatlarında artım | (2,281) | (6,660) |
| Verilmiş qısamüddətli avanslarda (artım)/azalma | (6,442) | (2,527) |
| Təxirə salınmış gəlirlərdə (azalma)/artım | - | (368) |
| Ticarət və digər kreditor borclarında artım/(azalma) | 13,997 | 169 |
| Sair qısamüddətli öhdəliklərdə artım | 120 | 1,203 |
| **Dövriyyə kapitalında dəyişikliklər** | **2,568** | **(12,365)** |
| Ödənilmiş mənfəət vergisi | 62 | - |

| | | |
|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | **8,736** | **9,978** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | |
| Əsas vəsaitlər və mədənlərin işlənilməsi üzrə məsrəflər | (51,182) | (10,126) |
| Verilmiş uzunmüddətli avanslar | 2,950 | (19,393) |
| Kəşfiyyat və qiymətləndirmə aktivləri üzrə investisiyalar | (12,809) | (9,946) |
| Sair qeyri-maddi aktivlərə investisiya qoyuluşu | (265) | (43) |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | **(61,306)** | **(39,508)** |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | |
| Əlavə kapital qoyuluşu | - | 73,529 |
| Kreditlər və borc vəsaitləri üzrə daxilolmalar | 73,853 | |
| İcarə öhdəliklərinin ödənilməsi | - | |
| Kreditlər və borc vəsaitlərinin ödənilməsi | (37,529) | (400) |
| Alınmış faizlər | 1,679 | |
| Ödənilmiş faizlər | (1,604) | |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | **36,399** | **73,129** |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | - | (17) |
| İl ərzində pul vəsaitlərində dəyişiklik | (16,172) | 43,583 |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **68,686** | **56,974** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **52,514** | **100,557** |

**13.7. Son bir il ərzində Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):** Azərbaycan Respublikası Prezidentinin 31 avqust 2023-cü il tarixli 4078 nömrəli “Azərbaycan Respublikasının dövlət müəssisələrinə özəl investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər haqqında” Sərəncamına əsasən **dövlət müəssisələrində institusional islahatların, restrukturizasiya və sağlamlaşdırma tədbirlərinin davam etdirilməsi, dövlətin iştirak payının azaldılması vasitəsilə özəl investisiyaların cəlb edilməsi, Azərbaycan Respublikası vətəndaşlarının dövlət müəssisələrinin idarəedilməsində iştirakının genişləndirilməsi, korporativ idarəetmənin tətbiqinin şaxələndirilməsi və qiymətli kağızlar bazarının inkişaf etdirilməsi məqsədilə** məqsədilə bir sıra dövlət müəssisələri ilə yanaşı Emitent də özəl investisiyaların cəlb edilməsi nəzərdə tutulan siyahıda daxil edilmişdir. Hazırda nüfuzlu beynəlxalq məsləhətçi şirkətlər cəlb olunmaqla aparılacaq təhlillər əsasında təkliflər hazırlanmaqdadır.

**13.8. Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından sonra Cəmiyyətin ümumi aktivlərində 802 mln. AZN artım olmuşdur, xalis dövriyyə kapitalı 166 mln. AZN artmışdır, likvidlik əmsalı 2022-ci il üzrə 1.76, 2023-cü il III rüb üzrə isə 1.79 olmuşdur, şirkətin kapitalı üzrə 410 mln. AZN artım olmuşdur.

## 14. EMİTENT HAQQINDA ƏLAVƏ MƏLUMATLAR:

**14.1. Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin (payların) miqdarı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu:**

**14.1.1. Nizamnamə kapitalının məbləği:** 233.300.000 (iki yüz otuz üç milyon üç yüz min) manat.

**14.1.2. Nizamnamə kapitalını təşkil edən adi, adlı səhmlərin sayı:** 2.000.000 (iki milyon) ədəd.

**14.1.3. Nizamnamə kapitalını təşkil edən adi, adlı səhmlərin hər birisinin nominal dəyəri:** 166,65 (bir yüz altmış altı manat almış beş qəpik).

**14.1.4. Nizamnamə kapitalını təşkil edən adi, adlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu:** Emitentin nizmnamə kapitalını təşkil edən adi, adlı səhm sahibləri Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə adi səhm sahibləri üçün müəyyən edilmiş bütün hüquqlara malikdirlər.

**14.1.5. Nizamnamə kapitalında imtiyazlı səhmlər barədə məlumat:** Emitent tərəfindən imtiyazlı səhmlər buraxılmamışdır.

**14.2. Emitentin nizamnaməsi barədə məlumat:**

**14.2.1. Fəaliyyət və məqsədlərin təsviri:** Cəmiyyətin əsas məqsədləri əlvan və qara metal filizi yataqlarının öyrənilməsini, tədqiqini, kəşfiyyatını, işlənməsini və idarə olunmasını, bu sahədə yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirməkdən ibarətdir.

**14.2.2. İdarəetmə və nəzarət orqanlarının səlahiyyətləri barədə müddəaların icmalı:** Cəmiyyətin ali idarəetmə orqanı Ümumi Yığıncaqdır. Ümumi Yığıncağın səlahiyyətlərinin icrası Azərbaycan Respublikası Prezidentinin “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 1047 nömrəli Sərəncamına uyğun olaraq, Azərbaycan Respublikası Prezidenti və Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan İnvestisiya Holdinqinə həvalə olunmuşdur. Cəmiyyətin Müşahidə Şurası Cəmiyyətin fəaliyyəti üzərində ümumi rəhbərliyi və nəzarəti həyata keçirən orqandır. Emitentin İdarə Heyəti onun kollegial icra orqanıdır. İdarə Heyətinin tərkibi 5 nəfərdən – Sədr, 4 nəfər sədr müavinindən ibarətdir. İdarə Heyətinin işinə Sədr rəhbərlik edir. Sədr və onun müavinlərini Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir. Emitentin fəaliyyətinə cari rəhbərliyi İdarə Heyətinin sədri həyata keçirir. Hər bir orqan Qanunvericiliklə və Cəmiyyətin Nizamnaməsi ilə ona həvalə edilmiş səlahiyyətləri icra edir (bax: Prospektin 9-cu bəndi).

**14.3. Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə Emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən, Emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Mövcud deyildir.

## 15. İSTİQRAZLAR BARƏDƏ TƏLƏB OLUNAN ƏSAS MƏLUMAT

**15.1. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat: Emissiyada aşağıdakı şəxslər iştirak edir və onlar arasında maraqlar toqquşması mövcud deyil:**

15.1.1. **“Bakı Fond Birjası” QSC.** Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarətini təşkil edir. İstiqrazların emissiyası prosesində “Bakı Fond Birjası” QSC-nin vəzifələri aşağıdakı kimidir:

15.1.1.1. İstiqrazların listinqə daxil edilməsi;

15.1.1.2. İstiqrazların hərrac vasitəsilə yerləşdirilməsi üçün müvafiq ticarət sisteminin təmin edilməsi;

15.1.1.3. İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi.

15.1.2. **“Milli Depozit Mərkəzi”.** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

15.1.2.1. İstiqrazların saxlanması və uçotunun aparılması;

15.1.2.2. İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;

15.1.2.3. Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

**15.1.3 Anderrayter.** “Paşa Kapital İnvestisiya Şirkəti” QSC 09 mart 2016-cı il tarixində Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən verilmiş İSN/L-640/2016 saylı lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. Bu emissiyanın anderrayteri kimi (öhdəlik götürmədən) Emitentin bütün satış sifarişlərini hərrac zamanı Birjaya təqdim edir, BFB-nin ticarət sistemi vasitəsi ilə istiqrazların yerləşdirilməsi xidmətlərini göstərir.

**15.2 İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:**

Cəlb olunacaq əlavə vəsaitlərlə ÇİRES (Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsi) layihəsi üzrə işlərin görülməsi və yeni mədənlərin işə salınması ilə mənfəətin daha da artırılması.

**15.3. Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələri maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə, tələb olunan əlavə pul vəsaitlərin məbləği və mənbələri:** Cəmiyyətin layihələri üzrə istiqrazlardan əldə ediləcək 20 milyon dollardan əlavə olaraq digər mənbələrdən vəsaitin ayrılması nəzərdə tutulmamışdır.

**15.4. Əldə olunan vəsaitlərin digər müəssisələrin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya Emitentin əsas fəaliyyətinə aidiyyəti olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:** Əldə olunacaq vəsait bu bənddə göstərilən istiqamətlər üzrə istifadə olunmayacaqdır.

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

## 16. İSTİQRAZLAR BARƏDƏ MƏLUMAT

**16.1. Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:** Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-cı il tarixli 05 saylı Qərarı ilə təsdiq edilmiş "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar" və 27 yanvar 2016-cı il tarixli 04 saylı Qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar".

**16.2. İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar.

**16.3. Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı-ayrılıqda göstərilməklə):**

| | Yeni buraxılış | Mövcud buraxılışlar |
|---|---|---|
| Say: | 200.000 (iki yüz min) | mövcud deyil |
| Nominal dəyəri: | 100 (bir yüz) ABŞ dolları | mövcud deyil |

**16.4. İstiqrazların valyutası:** ABŞ dolları.

**16.5. İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi depozitarın olduğu yer:** Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1141, Həsən bəy Zərdabi prospekti 2A, Şokolad Tauer.

**16.6. Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat:** Təklif edilən istiqrazların reytinqi mövcud deyil.

16.7. **İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:** İstiqraz mülkiyyətçiləri aşağıdakı hüquqlara malikdirlər:

16.7.1. Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;

16.7.2. İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;

16.7.3. İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən illik 6 (altı) faiz həcmində kupon ödənişi almaq;

16.7.4. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

İstiqrazlarla təsbit olunan hüquqların həyata keçirilməsinə dair qanunvericiliklə müəyyən edilmiş hallardan başqa məhdudiyyətlər nəzərdə tutulmamışdır.

İstiqraz mülkiyyətçiləri öz hüquqlarını bilavasitə özləri və ya qanunvericiliklə nəzərdə tutulmuş qaydada səlahiyyətli nümayəndələri vasitəsi ilə həyata keçirə bilərlər.

**16.8. İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi (müəyyən olduqda):** İllik 6 (altı) faiz.

**16.9. İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 6 (altı) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül dövründə (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 3 (üç) il müddətində, ildə günlərin sayı 360 (üç yüz altmış) olaraq götürülməklə) hər 90 təqvim günündən bir ödənilir. 90-cı gün qeyri-iş gününə təsadüf etdikdə, faiz ödənişi növbəti ilk iş günü ödənilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirlir. İstiqrazların nominal dəyəri sonuncu kupon ödənişi ilə birlikdə ödəniləcəkdir.

**16.10. Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Azərbaycan Respublikası Mülki Məcəlləsinə istinadən vaxtaşırı icra edilməli olan öhdəliklərdən irəli gələn tələblər üzrə iddia müddəti 3 (üç) il təşkil edir.

**16.11. Faiz dərəcəsi müəyyən olunmadığı halda, istiqrazın faiz dərəcəsinin hesablanması üsulu.** Faiz dərəcəsi müəyyən olunmuşdur.

**16.12. Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi mövcud deyil. Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir göstərməyəcəkdir.

**16.13. Ödənişlər üzrə hesablaşma agentinin adı:** İstiqrazlar üzrə faiz (kupon) ödənişləri və nominal dəyər üzrə əsas ödəniş Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi vasitəsilə həyata keçiriləcəkdir.

**16.14. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** Təklif edilən istiqrazlar təminatsızdır.

**16.15. İstiqrazların geri satın alınmasının şərtləri:** İstiqrazların Emitent tərəfindən tədavül müddəti ərzində geri satın alınması nəzərdə tutulmamışdır.

**16.16. Gəlirlik dərəcəsi və onun hesablanması qaydası:** İstiqrazlar üzrə kupon gəlirliyi illik 6 faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$F = ((N * D * G)/360) * 0.01$$

Burada:

$\boldsymbol{TF}$ – Bir istiqraz üzrə toplanmış faizlər;

$\boldsymbol{N}$ – İstiqrazın nominal dəyəri;

$\boldsymbol{D}$ – İstiqrazların illik faiz dərəcəsi;

$\boldsymbol{G}$ – Son faiz (kupon) ödənişindən sonra keçən günlərin sayı.

**16.17. İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** Mövcud deyil.

**16.18. İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş Emitentin idarəetmə orqanının adı:** Emitentin Ümumi Yığıncağı qismində AİH-nin Müşahidə Şurasının 19.10.2023-cü il tarixli 25 nömrəli Protokolu əsasında.

16.19. **İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda**): Hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

16.20. **İstiqraz üzrə gəlirlərdə mənbədən verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə Emitentin öhdəliyi:**

Fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri vergidən azaddır.

Hüquqi şəxslərə istiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində 10 % vergi tətbiq edilir.

16.21. **İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə Emitentin öhdəliyi:**

İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması üzrə Emitentin öhdəliyi müvafiq müqavilə əsasında ödəniş agenti olan Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi ötürülür. Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi faiz (kupon) ödənişi günündən bir iş gün əvvələ düşən iş gününün sonunda saat 23.59-da istiqraz sahiblərinin reyestrini formalaşdıracaqdır. Növbəti iş günü (ödəniş günü) həmin reyestrdə adları qeyd olunan investorlara sahib olduqları istiqrazların sayına görə müvafiq faiz (kupon) ödənişinin məbləği hesablanacaqdır. Bu faiz ödənişinin məbləğindən ödəmə mənbəyindən tutulan verginin məbləği çıxıldıqdan sonra xalis faiz ödənişinin məbləği investorların bank hesabına köçürüləcəkdir.

## 17. TƏKLİFİN ŞƏRTLƏRİ

**17.1. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:** Emissiya ediləcək istiqrazın buraxılışı üzrə yerləşdirmənin başlanma və başa çatma tarixləri qanunvericiliklə müəyyən edilmiş orqan (qurum) tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 (iki) iş günü qalmış hərracın baş tutacağı tarix "BakıFond Birjası" QSC-nin (www.bfb.az) və Anderrayterin saytında investorlara açıqlanacaq və 7 (yeddi) iş günü ərzində tamamlanacaq.

**17.2. Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:** Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 (beş) iş günü ərzində qanunvericilikdə müəyyən edilmiş orqana (quruma) təqdim edilir. Emissiya prospektində dəyişikliklər müvafiq ərizənin daxil olduğu gündən 10 (on) iş günü ərzində dövlət qeydiyyatına alınır. Qeyd olunan dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən 5 (beş) iş günü ərzində vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yaradılan avtomatlaşdırılmış sistem), fond birjasının və Emitentin internet səhifəsində açıqlanır və açıqlandığı tarixdən 15 (on beş) iş günü bitdikdən sonra qüvvəyə minir.

**17.3. Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və Emitentin internet səhifəsində açıqlanır.

**17.4. İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:** İstiqrazların yerləşdirilməsi abunə yazılışı aparılmadan həyata keçiriləcəkdir.

**17.5. İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası:**

Emissiya ediləcək istiqrazlar qanunvericiliklə müəyyən edilmiş orqan (qurum) tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 iş günü qalmış hərracın baş tutacağı tarix "Bakı Fond Birjası" QSC-nin və Anderrayterin saytında investorlara açıqlanacaqdır. İstiqrazlar kütləvi təklif üsulu ilə Bakı Fond Birjasında 3 il müddətli, təminatsız, sənədsiz, adlı, istiqraz nominal

dəyəri 100 ABŞ dolları olmaqla, illik 6% (kupon) dərəcə və kuponun rüblük ödəniş şərti ilə 20 milyon ABŞ dolları dəyərində emissiya olunacaqdır.

İstiqrazlar rəqabətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. Rəqabətli hərrac üsullu ticarət zamanı əqdlər hərracın sonunda, toplanmış alış və ya satış sifarişlərinə qarşı qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısı (anderrayter) tərəfindən əks sifarişin daxil edilməsi yolu ilə bağlanır. Rəqabətli hərrac iki mərhələdə təşkil olunur: sifarişlərin qəbul edilməsi və əqdlərin bağlanması. Sifarişlərin qəbul edilməsi mərhələsində ticarət iştirakçıları (anderrayter və Bakı Fond Birjasının digər ticarət üzvləri olan investisiya şirkətləri) rəqabətli sifarişlər təqdim edirlər. Bu mərhələdə ticarət iştirakçıları hərraca çıxarılmış qiymətli kağızlar üzrə təqdim etdikləri sifarişlərin şərtlərini dəyişdirə və ya bu sifarişləri ləğv edə bilər. Sifarişlərin təqdim edilmə müddəti bitdikdən sonra sifarişlərin təqdim edilməsinə, dəyişdirilməsinə və ləğv edilməsinə yol verilmir. Əqdlərin bağlanması mərhələsində qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısı (anderrayter) təqdim edilmiş sifarişlərin icra ediləcəyi minimal qiyməti (kəsmə qiymət) müəyyən edərək əks sifarişi ticarət sisteminə daxil edir. Rəqabətli sifarişdə qeyd olunan qiymət kəsmə qiymətdən aşağı olmadıqda bu sifarişlər təmin edilir. Sifarişlərin qəbulu mərhələsində təqdim edilmiş sifarişlər (sifarişlər kitabı) yalnız qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısına (anderrayterə) açıqlanır. Digər hərrac iştirakçıları yalnız özlərinin təqdim etdikləri sifarişləri görə bilirlər. Hərrac günündən gec olmayaraq, investorlar istiqrazların alınması üçün pul vəsaitlərini emitent tərəfindən "PAŞA Bank" ASC-də açılmış müvəqqəti cari hesaba köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet saytında (www.azergold.az) açıqlanır

17.6. **İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:** İstiqrazların dəyərinin ödənilməsi qaydası "Qiymətli kağılar bazarı haqqında Azərbaycan Respublikasının Qanunu" və "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar" ilə tənzimlənir. Yerləşdirmə müddəti ərzində investorlar qiymətli kağızların dəyərini bu emissiya prospektində müəyyən edilmiş bankda açılmış müvəqqəti cari hesabına köçürməlidirlər. İnvestorlar tərəfindən ödənilmiş pul vəsaitləri qeyd edilən müvəqqəti cari hesabda saxlanılır və kütləvi yerləşdirilən istiqrazlar üzrə həmin vəsaitlərin istifadəsinə "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 8.1-ci maddəsinə uyğun olaraq yerləşdirmə başa çatdıqdan dərhal sonra yol verilir. Mərkəzi depozitar investisiya qiymətli kağızlarının dəyərinin investorlar tərəfindən ödənilməsi haqqında məlumatları aldıqdan sonra qiymətli kağızları investorların depo hesablarına köçürülməsi əməliyyatını həyata keçirir.

**17.7. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** Emissiya ediləcək istiqrazlar həm fiziki, həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

17.8. **İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** Emissiya ediləcək istiqrazın buraxılışı üzrə yerləşdirmənin başlanma və başa çatma tarixləri qanunvericiliklə müəyyən edilmiş orqan (qurum) tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı iki iş günü qalmış hərracın baş tutacağı tarix “Bakı Fond Birjası” QSC-nin (www.bfb.az) və Anderrayterin saytında investorlara açıqlanacaq və 7 (yeddi) iş günü ərzində tamamlanacaq.

**17.9. İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətinin müəyyənləşdirmə metodunu göstərməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barədə məlumat:** Bir istiqrazın təklif qiyməti 100 (bir yüz) ABŞ dollar təşkil edir.

**17.10. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

17.10.1. Vergilər. İstiqrazlar Fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri vergidən azaddır.

Hüquqi şəxslərə istiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində 10 % vergi tətbiq edilir.

17.10.1.1. Xərclər. İstiqrazın əldə olunması ilə bağlı xidmət haqqı xərcləri investisiya şirkətlərinin tarif siyasətindən asılıdır. Bu barədə məlumat almaq istəyən investorlar onlara investisiya xidməti göstərəcək “PAŞA Kapital İnvestisiya Şirkəti” QSC-ə müraciət etməlidir.

əqdin məbləğinin 0.02%-i həcmində BFB komissiyası;

investisiya şirkətinin komisyon haqqı: investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;

MDM-də “depo” hesab açılması üçün 10 AZN

hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (bankdan asılı olaraq dəyişir).

**17.11. İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən Anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı).**

“Paşa Kapital İnvestisiya Şirkəti” QSC 09 mart 2016-cı il tarixində Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən verilmiş

İSN/L-640/2016 saylı lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. Bu emissiyanın anderrayteri kimi (öhdəlik götürmədən) Emitentin bütün satış sifarişlərini hərrac zamanı Birjaya təqdim edir, BFB-nin ticarət sistemi vasitəsi ilə istiqrazların yerləşdirilməsi xidmətlərini göstərir.

**17.12. Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxt:**

“Paşa Kapital İnvestisiya Şirkəti” QSC ilə müqavilə 27.11.2023-cü il tarixində bağlanılmışdır.

## 18. İSTİQRAZLARIN TİCARƏTƏ BURAXILMASI VƏ ONUN TƏNZİMLƏNMƏSİ

**18.1 İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə Emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda, istiqrazların ticarətə buraxılacağını tənzimləyən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:**

İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsi nəzərdə tutulub. İstiqrazlar “Bakı Fond Birjası” QSC-nin ticarət platformasında rəqabətli hərrac üsulu vasitəsilə yerləşdiriləcəkdir. Hərrac zamanı ilk növbədə investorlar tərəfindən təqdim edilən ən yüksək qiymətli sifarişlər təmin ediləcəkdir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyət formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli fond birjası fəaliyyətini həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikasının ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar iştirakçısı kimi fəaliyyət göstərir. BFB-nin faktiki ünvanı: Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi küçəsi, 2A. İstiqrazların ticarətə buraxılması şərtləri BFB-nin daxili qaydaları (“Bakı Fond Birjası” QSC-də qiymətli kağızların listinqə daxil olunması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili Qaydaları və Bakı Fond Birjasında qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə ticarətin təşkili və keçirilməsi Qaydaları) ilə tənzimlənir.  .

**18.2. Market meyker(lər) barədə məlumat:** Mövcud deyil. Bazar şərtlərini nəzərə alaraq, Emitent istiqrazların likvidliyinin qorunması və ya artırılması məqsədi ilə market-meyker(lərvəi) cəlb edə bilər.

## 19. KREDİT REYTİNQLƏRİ

**Reytinq prosesində Emitentin sorğusu və ya Emitentlə əməkdaşlıq nəticəsində Emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri:** Mövcud deyil.